*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 297-304*
https://doi.org/10.62837/2024.5.297

**SƏBİNƏ MƏHƏMMƏDOVA TEMİRLAN QIZI**
Email: mahammadovasabina1986@gmail.com
Bakı Slavyan Universiteti
Adres: 33 Süleyman Rüstəm küçəsi, Bakı

# ƏLİ NAZİMİN CƏLİL MƏMMƏDQULUZADƏ HAQQINDA FİKİRLƏRİ

**Açar sözlər: ədəbi tənqid, realizm, klassik irs, ideologiya**

XX əsrin iyirminci-otuzuncu illərində Azərbaycan ədəbi tənqidini müəyyənlişdirən və onu inkişaf etdirən tənqidçilərdən biri də Əli Nazim təxəllüsü ilə tanınan Ələkbər Mahmud oğlu Mahmudzadədir idi. Bu təxəllüsün seçilməsi təsadüfi deyildı və tənqidçinin böyük türk şairi Nazim Hikmətə olan məhəbbəti və ehtiramı ilə bağlıdır. Geyd etmək lazımdır ki, Nazim Hikmət poeziyası, onun şərq ədəbiyyatında yeni vəzn olan sərbəst vəznlə yazılmış şeirləri Azərbaycan şairlərinin yaradıcılığına güclü təsir göstərmiş, burada da sərbəst şeirin yaranmasına gətirib çıxarmışdır.

Əli Nazim 24 noyabr 1906 -cı ildə Cənubi Azərbaycanının Təbriz şəhərində dünyaya göz açmışdır. O, ilk təhsilini mədrəsədə almış, və burada fars dilini mükəmməl öyrənməyə nail olmuşdur. Əli Nazim rus dilini Batumidə yaşayan ailəsinin yanına köçəndən sonra mənimsəmişdir. Gələcəyin istedadlı ədəbiyyatşünası Əli Nazim gənc yaşlarından ədəbiyyata, ədəbiyyat nəzəriyyəsinə, təhsilə böyük maraq göstərmişdir. Maraqlı faktdır ki, 1922 ildə on altı yaşlı Ələkbər Səməd Ağaoğlunun Batumidə təşkil etdiyi yeni əlifba komitəsinin işində fəal iştirak etmişdir. Həmin ildə Bakıda pedağoji texnikuma daxil olub və orada təhsil aldığı müddətdə "Yeni yol" və "Kommunist" qəzetlərində məqalələr dərc etdirmişdir. Texnikumu əla qiymətlərlə bitirən və rus dilini yaxşı bilən Əli Nazim 1925-ci ildə Leninqrad Şərqşünaslıq İnstitutunda təhsilini davam etdirir. Burada o, dünya şöhrətli şərqşunas alimləri akademik A. N. Samoyloviç və professor Y. Bertelsin tələbəsi olmuş və onların rəğbətini qazanmışdır. Təsadüfi deyil ki, məhz Y. Bertelsin təqdimatı ilə Əli Nazim 1927-ci ildə institutun son kursunda oxuyarkən Türkiyəyə elmi ezamiyyətə göndərilmişdir. İnstitutda oxuyan zaman istedadlı tələbə müasir ədəbiyyatın aktual problemlərinə diqqət yetirir, tənqidi fəaliyyətlə məşğul olur və Bakıda "Kommunist", "Maarif və mədəniyyət" kimi sanballı mətbuat orqanlarında məqalələrini çap etdirir. Türkiyədə ezamiyyətdə olarkən Əli Nazim Türkiyə mətbuatında da müasir Azərbaycan ədəbiyyatı haqqında geniş məqalə dərc etdirir. Ezamiyyətdən qayıdandan sonra Əli Nazim Moskva Kommunist Akademiyasının aspiranturasına daxil olur. Əli Nazimin istedadı, bacarığına görə onu aspiranturanı bitirdikdən sonra elə oradaca, Kommunist Akademiyasında işə götürürlər. O, əvvəlcə elmi işçi, sonralar isə SSRİ xalqları ədəbiyyatı və incəsənəti bölməsinin

elmi katibi vəzifələrində işləyib. Moskvada işlədiyi zaman Əli Nazim Moskva jurnallarında "Azərbaycan ədəbiyyatı", "Xırda burjua ziyalıları proletar ədəbiyyatı pərdəsi altında " məqalələrini çap etdirmişdi.

Beş il ərzində (1927–1932) Moskvada çalışdıqdan sonra Əli Nazim Bakıya qayıdır və öz fəaliyyətini Bakıda davam etdirir. O, həm pedağoji, həm də elmi işlə məşğul olur.Belə ki, Azərbaycan Elmi-Tədqiqat İnstitutunun ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışaraq eyni zamanda Ali Pedaqoji İnstitutda kafedra müdiri vəzifəsini də icra edir.Tələbələrin sevimlisi olan Əli Nazim ədəbiyyat nəzəriyyəsi, poetika, poetika tarixi, ədəbiyyat tarixi və s. kurslar üzrə mühazirələr oxuyub, seminar aparıb. Uşaqların təhsilinə böyük diqqət yetirən, bu işin ölkənin inkişafında nə dərəcədə əhəmiyyəti olduğunu dərk edən Əli Nazim orta məktəbin yuxarı sinif şagirdləri üçün ədəbiyyat müntəxabatı tərtib etmiş, Hənəfi Zeynallı ilə şərikli dərslik də hazırlamışdır .

Əli Nazim rus dilində nəşr olunan "Ədəbiyyat ensiklopediyası"nın şöbə redaktoru vəzifəsini icra edirdi və burada Azərbaycan və türk ədəbiyyatı haqqında məqalələr dərc etdirmişdir. Bununla o, bir azərbaycanlı, bit türk oğlu kimi bu ədəbiyyatları rusdilli oxucular arasında təbliq edir, onlara diqqəti cəlb edirdi.

Ümumiyyətlə, 30-cu illərin əvvəlindən başlayaraq Əli Nazimin fəaliyyəti çox aktiv və çoxşahəli idi. Gənc tədqiqatçı həmin illərdə Azərbaycan Sovet Yazıçıları İttifaqı İdarə Heyətinin və bir sıra mətbuat orqanlarının redaksiya heyətinin üzvü olmuşdur. Bundan əlavə o, həm də bədii yaradıcılıqla məşğul idi. Məsələn, Nazim Hikmətin təsiri altında yazılmış "Qara dənizi keçərkən" sərbəst şeirin müəllifidir. Əli Nazim ədəbiyyatda ideyalılıq problemlərinə, yeni ədəbiyyatın yaradıcılıq simasına xüsusi diqqət yetirirdi. "Bugünkü Azərbaycan ədəbiyyatı və onun ictimai məfkurəvi siması", "Mədəni inqilab və mədəni irs məsələsi", "Çığırdaşlarımız haqqında", "Yeni Azərbaycan ədəbiyyatı" və s. məqalələri bu mövzulara həsr edilib. "Azərbaycan ədəbiyyatı", "Xırda burjua ziyalılığı proletar ədəbiyyatı pərdəsi altında" məqalələri Moskva jurnallarında dərc olunur. 1933-cü ildə "Marks və Engelsin estetik görüşləri haqqında" məqaləsi Azərbaycanda bu sahədə ilk təşəbbüslərdən biri kimi qiymətləndirilir Əli Nazimin ədəbi irsində onun toxunmadığı, bu və ya digər səviyyədə açıqlamadığı əhəmiyyətli və vacib ədəbi-estetik problem tapmaq çətindir. Tənqidçinin diqqətini ədəbiyyata yeni gələn şair və yazıçılar cəlb edirdi, eyni zamanda o, klassik irsin də öyrənilməsinə böyük diqqət yetirirdi.

20-30-cu illərdə Azərbaycan ədəbiyyatşünaslığının qarşısında bütün ciddiliyi ilə mühüm aktual problem dayanmışdır: keçmişin ədəbiyyatını öyrənmək və klassik irsin yeni sosialist ədəbiyyatının yaradılmasında rolunu müəyyənləşdirmək. Əli Nazim bu sahədə xeyli iş görmüşdü.Onun Cəlil Mmədquluzadə, Mirzə Fətəli Axundov, Əbdurrəhimbəy Haqverdiyev , Mirzə Ələkbər Sabir haqqında yazdığı məqələlərində bu görkəmli qələm ustalarının yaradıcılığı dərindən təhlil edilmişdir. Düzdür, burada da tənqidçinin zamanın ideologiyası ilə bağıl səhvləri vardı, ancaq ümumiyyətlə bu yazıçıları dəyərincə qiymətləndirməyə nail olmuşdur.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 297-304*

Əli Nazim Azərbaycan ədəbiyyatının tarixi probleminə, klassik ədəbiyyatın düzgün qiymətləndirmə məsələləriunə də böyük maraq göstərirdi və bu problemlərin hələ də həll olunmaması onu çox incidirdi. “Ədəbiyyatımız və tariximiz” məqaləsində o acı bir təəssüflə yazırdı:

“Nə var? Heç bir şey” Yalnız acı bir həsrət, ictimai bi `qibtə, sarsıdıcı bir məyusluq.

Nə ədəbi təhlilimiz, nə tənqidimiz, nə ədəbiyyat tariximiz – heç biri yoxdur[1,28]

Onun “ “Şeirimizin və şüurumuzun xəstəlikləri haqqında”, “Ədəbiyyatımızı bolşevkləşdirmək və həqiqi proletar ədəbiyyatı yaratmaq” , “Oktyabr və tənqidimiz” , “Süleyman Rüstəm haqqında kiçik bir mülahizə” və sair bu kimi məqalələrində çağdaş ədəbiyyatın vacib məsələləri müzakirə olunurdu. Düzdür, bu məqalələrdə proletkultçuluq, vulqar sosioloqçuluq nəzəriyyəsinin əlamətləri gözə çarpır, yalnış, birtərəfli fikirlər söylənilir, ancaq bunları dövrün ümumi ab-havası və ədəbi tənqidin axtarışları ilə əlaqələndirmək olar. Buna misal olaraq Ə. Nazimin klassik irsə münasibətini göstərmək olar. Bir tərəfdən o, yeni ədəbiyyatdan danışarkən klassik irsə müraciət edirdi, digər tərəfdən isə klassik irsi düzgün qiymətləndirmirdi, ona vulqar sosioloqizm nöqteyi-nəzərindən yaxınlaşırdı, və buna görə də hesab edirdi ki, klassik ədəbiyyat ancaq kiçik bir sinfin ruhunu oxşayırz, ona qulluq edir və geniş xalq kütləsindən çox-çox uzaqdır. Xalqa xidmət edən ədəbiyyatı o ancaq proletar ədəbiyyatında görürdü

Onu da qeyd etmək lazımdır ki, XX əsrin 20-30-cu illərin həm ədəbiyyatı, həm də ədəbi tənqi yuxarıdan, yəni bolşeviklər partiyasının Mərkəzi komitəsindən göndərilən sərəncam və qətnamələrlə tənzimlənirdi. Bu baxımdan MK- 18 iyun 1925-ci il tarixli «Bədii ədəbiyyat sahəsində partiyanın siyasəti haqqında» qətnaməsi göstərici xarakter daşıyırdı. Qətnamə Oktyabr inqilabına münasibətinə görə yazıçıların sinfi mövqelərinin müəyyənləşdirilməsinə xidmət edirdi. Bu qərarda proletar ədəbiyyatının hegemonluğunu təmin etməyin yolları göstərilirdi. Möhtəşəm əsərlər yaratmış əvvəlki nəslin nümayəndələri isə «cığırdaş» adlandırılır və onlara tövsiyə olunurdu ki, kommunist ideologiyasına yaxınlaşmaq üçün bütün imkanlardan istifadə etsinlər. Ədəbi tənqid də bu yolla gedirdi. Ona görə bədii ədəbiyyatın görkəmln nümayəndələrinin yaradıcılığı da məhz bu qərarın təsiri altında aparılırdı. Onun “ “Şeirimizin və şüurumuzun xəstəlikləri haqqında”, “Ədəbiyyatımızı bolşevkləşdirmək və həqiqi proletar ədəbiyyatı yaratmaq” , “Oktyabr və tənqidimiz” , “Süleyman Rüstəm haqqında kiçik bir mülahizə” və sair bu kimi məqalələrində çağdaş ədəbiyyatın vacib məsələləri müzakirə olunurdu. Düzdür, bu məqalələrdə proletkultçuluq, vulqar sosioloqçuluq nəzəriyyəsinin əlamətləri gözə çarpır, yalnış, birtərəfli fikirlər söylənilir, ancaq bunları dövrün ümumi ab-havası və ədəbi tənqidin axtarışları ilə əlaqələndirmək olar. Buna misal olaraq Ə. Nazimin klassik irsə münasibətini göstərmək olar. Bir tərəfdən o, yeni ədəbiyyatdan danışarkən klassik irsə müraciət edirdi, digər tərəfdən isə klassik irsi düzgün qiymətləndirmirdi, ona vulqar sosioloqizm nöqteyi-nəzərindən yaxınlaşırdı, və buna görə də hesab edirdi ki, klassik ədəbiyyat ancaq kiçik bir sinfin ruhunu

oxşayırz, ona qulluq edir və geniş xalq kütləsindən çox-çox uzaqdır. Xalqa xidmət edən ədəbiyyatı o ancaq proletar ədəbiyyatında görürdü .Ancaq istedadlı, qabaqcıl tənqidçilər bu yolla getsələr də, obyektivlik naminə özlərinin buraxdıqları bəzi səhvlərdən uzaqlaşırdılar. Buna bariz nümunə Əli Nazimin Azərbaycanın tanınmış yazıçısı, realist ədəbiyyatının görkəmli nümayəndəsi Cəlil Məmmədquluzadənin yaradıcılığına yanaşması idi. Onun C. Məmmədquluzadə haqqında söylədiyi fikirlər olduqca maraqlıdır.

Əli Nazim C Məmmədquluzadə haqqında mətbuatda bir neçə məqalə dərc etdirmişdir. Məsələn , "Molla Nəsrəddinin yaradıcılığı", "Realist, satirik və sənətkar", "Molla Nəsrəddinin realizmi, gülüşü və "Ölülər" haqqında", "Böyük realist, böyük satirik, böyük sənətkar" və s.

1932 ildə isə Əli Nazimin yuxarıda adı çəkilən məqalələrin əsasında Cəlil Məmmədquluzadənin yaradıcılığına həsr olunmuş monoqrafiyası işıq üzü gördü, və onu da qeyd edək ki, bu elmi əsər görkəmli ədibin yaradıcılığını izləyən ilk monoqrafik iş idi.

Əli Nazim çox ədalətli olaraq C.Məmmədqulizadə yaradıcılığına həm doğma ədəbiyyatın, xüsusilə də M.F Axundzadənin qoyduğu ənənələrin , həm də rus ədəbiyyatının təsirini vurğulayır. Onu da qeyd eməyi lazım bilirik ki, Ə.Nazimin fikrincə, inqilabdan əvvəl yazılan ədəbiyyat ( məs., Ə.Haqverdiyevum "Müsibəti-Fəxrəddin" pyesi) əməkçi xalqdan uzaq idi, hadisələri xırda -burjua , bəyzadə nöqtryi-nəzərindən təsvir edirdi və buna görə də burada ictimai mühit nəzərinin çox darlığı gözə çarpırdı və bu səbəbdən tənqidçi bu ədəbiyyatın realizmini də çox məhdud realizm sayırdı. Fikrimizcə, belə mülahizələr proletkultçuluq nəzəriyyəsinin təsiri altında yaranmışdır. Xatırladaq ki, proletkultçuluq keçmişdə yaranan bədii irsi inkar edirdi. Hətta rus ədəbiyyatında gənc yazarlar belə bir absurd şüarla da çıxış edirdilər: "klassikləri müasirlik gəmisindən ataq!"

Ancaq böyük istedad, geniş dünyagörüşü və biliklərə malik Əli Nazim bu nəzəriyyənin çərçivəsində qala bilməzdi. O, klassiklərimizi tamamilə inkar etmirdi, əksinə onlardan öyrənməyə, onların üsullarını, metod və vasitələrini yenidən işləyərək, sosializm quruluşu praktika və nəzəriyyəsi ilə ruhlandırmağa çağırırdı.

Əli Nazim Cəlil Məmmədquluzadənin yaradıcılığını üç dövrə bölürdü:

I. 90-cı illərdən 1905-ci ilə qədər
II. 1905-ci ildən 1922-ci ilə qədər
III. 1922-ci ildən 1932-ci ilə qədər.

Birinci dövrə aid olan "Danabaş kəndinin əhvalatları", "Danabaş kəndinin məktəbi" əsərləri haqqında yazarkən, tənqidçi belə bir qənaətə gəlir ki, C. Məmmədquluzadə bu əsərlərdə həyatın ziddiyyətlərini, istismar olunanları və istismarçıları, dövrə xas olan cəhələti: qadın əsarətini, ruhanilərin hiylə və fırıldaqçılığını bir obyektiv rəssam kimi təsvir edir, yəni bu ziddiyyətlərlə mübarizə yolunu, mübarizə üsulunu özü də bilmədiyi üçün göstərmir. Əli Nazim burada çox maraqlı bir bənzətmə işlədir: " Onun obyektliviyi hələlik heç bir müalicə bilməyən

namuslu bir cərrah obyektivliyidir"[1, 109]. Əli Nazim onu da vurğulayır ki, müəllif məhz incə yumor və kəskin satira vasitəsilə həyatın acı reallığını göstərir.. və bu gülüşün isə bir xüsusiyyəti "göz yaşları ilə yoğrulmuş acı bir gülüş olmasıdır".

C. Məmmədquluzadə yaradıcılığının ikinci dövrünü Ə.Nazim onun yaratdığı satirik "Molla Nəsrəddin"jurnalı ilə bağlayırdı. Yurnal cəmiyyətin nöqsanlarıni, çirkinliklərini, köhnə adətləri, mülkədarları, imperializmi kəskin gülüş vasitəsilə qamçılayırdı." Molla Nəsrəddi" yurnalının əhəmiyyətini çox yüksək qiumətləndirən Əli Nazim burada müxtəlif satirik yanrlara yer verilməsini, öz başına tanınmış şair və yazıçıları toplamasını və ən öncə realizm istiqamətini xüsusi vurğulayır. Burada Ə.Nazim həm də "Molla Nəsrəddin" yurnalı ilə sponsoru maarifpərvər, milyonçu-mesenat Hacı Zeynalabdin Tağıyev olan "Fiyuzat" yurnalları arasında ayrı-ayrı ədəbi-ictimai problemlərə münasibətlərində, xüsusən dil məsələsində gedən mübarizə, ciddi fikir ayrılığı haqqında da söz açır, və yenə də sovet ideoloqiyasının təsiri özünü büruzə verir . Tənqidçi Azərbaycan dili ətrafında gedən mübarizəni milli-qurtuluş və burjua –demokratik inqilabla irtica arasında gedən bir mübarizə kimi səciyələndirir.Düzdür, "Molla Nəsrəddin"in dili sadə, aydın xalq dili, fiyuzatçıların dili isə daha çox elitanın dili, burada bir çox türk sözləri işlədilirdi. Bundan əlavə, bildiyimiz kimi, "Molla Nəsrəddin"-in əsas istiqaməti realizm, "Fiyuzat"ınki isə romantizm idi. Ancaq belə fərqlərə baxmayaraq hər iki yurnalın fəaliyyəti bir məqsədə yönəlmişdir. Fiyuzatçılar da mollanəsrəddinçilər kimi xalqı maarifləndirmək, onda öz tarixinə, çağdaş durumuna gözüaçıq münasibət oyatmaq, mədəniyyəti və elmi yaymaq arzusunda idilər və bu sahədə geniş fəaliyyət göstərmişlər. Əməkdar yurnalist Flora Xəlilzadə bu iki jurnalın bir əqidəyə qulluq etməsi barədə obrazlı surətdə belə yazır:"Azərbaycan milli mətbuatının inkişafında özünəməxsus yeri olan "Molla Nəsrəddin" və "Füyuzat" jurnalları həqiqətən də əkiz qardaşlardır! Bu qoşa qanadın uçuş istiqaməti eyni məkan, daşıdığı fikir və məna yönü də bir idi."[ 2, s.6].

Burada onu da qeyd etmək istərdik ki, sovet dövründən ta respublikamiz müstəqillik qazanana qədər ədəbiyyatşünslıqda və ümumiyyətcə cəmiyyətdə "Fiyuzata" qarşı münasibət mənfi idi. Ancaq respublikamız müstəqillik qazandıqdan sonra bu münasibət köklü surətdə dəyişdi, 2007-ci ildən başlayaraq ədəbiyyatşünas Teymur Əhmədovu redaktorluğu ilə "Fiyuzət" jurnalının yeni həyatı başladı. Əsas mövzudan bir az uzaqlaşsaq da , maraqlı bir fakt haqqında məlumat vermək istərdik . 2017-ci ildə Bakı Dövlət Universitetində Jurnalistika və Filologiya fakültələrinin birgə təşkialtçılığı ilə "Füyuzat" jurnalının 110 illik, yenidən nəşrinin isə 10 illik yubileyinə həsr olunmuş "Vətənin vətəndaşı, bir işıq da sən yandır" esse müsabiqəsi keçirilmışdir**.** Və bu "Fiyuzat" jurnalına olan münasibətin bariz nümunəsidir

Əli Nazim C. Məmmədquluzadəyə həsr etdiyi monoqrafiyada "Ölülər","Anamın kitabı" "Dəli yığıncağı" əsərlərini təhlil edərək onların əsas qayəsini açıqlayır, bədii xüsusiyyətlərinə diqqət yetirir. Tənqidçi C. Məmmədquluzadənin yaradıcılığında qəribə bir üsula diqqətini cəlb edir. O, əsasən kəskin gülüş , satira üzərində qurulan əsərlərdə , məsələn "Ölülər" komediyasında,

“Anamın kitabında” xüsusi bir lirizm və romantizm görür və deyir: “Bəlkə də çoxlarına bu bir paradoks kimi görünə bilər: komizm və lirika, komizm, satira və romantika?” [1, 202] Və verdiyi suala cavab olaraq o, dərin , hərtərəfli analizlə bunun paradoks olmadığını sübut edir.

C. Məmmədquluzadənin yaradıcılığının üçüncü dövrü Azərbaycanda sovet hakimiyyəti qurulan vaxta təsadüf edir. Sosializm realizmi metodunu təbliq edən Əli Nazim ədibin bu dövrdə yaratdığı əsərlərini və “Molla Nəsrəddin” yurnalının fəaliyyətini araşdıraraq belə bir nəticəyə gəlir ki, yeni şəraitdə ədibin tənqidi realizm istiqamətində yaratdığı yeni əsərləri artıq sovet ədəbiyyatının qarşısına qoyulan tələblərə uyğun deyildi , və ona görə də o, yaradıcılığının bu dövründə obyektiv varlığın əsas qüvvələrini, işçi sinfini və onun inqilabi mübarizəsini öz bədii əsərlərində qətiyyən göstərə bilməmişdi. Bununla belə tənqidçi C. Məmmədquluzadənin vəfatı münasibətilə dərc etdiyi məqalədə onu “Cığırdaş” adlandırır, və eyni zamanda onun "Azərbaycan ədəbiyyatında böyük bir inqilabi mövqeyə malik olduğunu təsdiqləyir.

Beləliklə, Əli Nazim Cəlil Məmmədquluzadənin yaradıcılığını ciddi surətdə təhlil etmiş, yaradıcılığını dövrlərə bölmüş və dövrün ədəbi-estetik, nəzəri-metodoloji səviyyəsin ücbatından bəzi səhvlərə yol verməklə bərabər, ədibin milli ədəbiyyatımıza verdiyi töhvələrini, ədəbiyyatımızın inkişafında, realizmın dərinləşməsindəki rolunu göstərməyə çalışmışdı.

.

## Ədəbiyyat

. 1.Əli Nazim. Secilmiş əsərləri. Bakı:” Yazıçı,1979
2.Flora Xəlilzadə. Qoşa qanad // “Azərbaycan” 2010, 20 iyul

**Məhəmmədova Səbinə Temirlan**

**Əli Nazimin Cəlil Məmmədquluzadə haqqında fikirləri**

**Xülasə**

Məqalədə iyirminci əsrin 20-30-cu illərinin məşhur Azərbaycan ədəbiyyatşünası, qanlı repressiya qurbanı olmuş Əli Nazimin görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədqulizadənin yaradıcılığı haqqındakı fikirləri araşdırılır. Qeyd olunur ki, tənqidçi C. Məmmədquluzadənin yaradıcılığını üç dövrə bölür. Hər dövrün xüsusiyyətlərini təhlil edir. Həmçinin məqalədə vurğulanır ki, Əli Nazim C. Məmmədquluzadənin “Ölülər” komediyası, “Anamın kitabı” pyesinin araşdırması nəticəsində yazıçının fərqli üsullar üzə çıxarır. Kəskin gülüş , satira ilə yanaşı lirizm və romantizm əlamətlərinin olması duyulur. Əli Nazim o dövrün ideoloji tələbləri ilə bağlı Cəlil Məmmədquluzadə yaradıcılığı haqqında bəzi yalnış fikirlər söyləyir. Söyləsə də, ancaq yazıçının yaradıcılıq yolunun təhlilinə əsaslanaraq onun Azərbaycan ədəbiyyatında tutduğu yeri düzgün qiymətləndirmişdi. Və realizmin inkişafında böyük rolunu vurğulamışdır.

**Açar sözlər:** monoqrafiya, dövrləşmə,bədii xüsusiyyətlər, yaradıcılıq, realizm, yazıçı

## ВЗГЛЯДЫ АЛИ НАЗИМА НА ТВОРЧЕСТВО ДЖАЛИЛЯ МАМЕДКУЛИЗАДЕ


### РЕЗЮМЕ

В статье рассмотрены взгляды известного азербайджанского литературного критика 20-30 -х годов XX века Али Назима. Который стал жертвой кровавых репрессий. Взгляды рассмотрены на творчество выдающегося азербайджанского писателя Джалила Мамедкулизаде. Отмечается, что критик делит творчество Джалила Мамедгулузаде на три периода. Также анализирует особенности каждого периода. В статье также подчеркивается, что комедия Али Назима Джалила Мамедгулузаде «Мертвые» и пьеса «Книга моей матери» раскрывают своеобразныйметод писателя - наличие наряду с резким смехом и сатирой лиризма и романтизма. Отмечено, что Али Назим сделал некоторые ошибочные выводы о творчестве писателя, потому что это было связано с идеологическими требованиями того времени. Несмотря на это, Али Назим на основе анализа творческого пути писателя сумел дать верную оценку места Джалила Мамедкулизаде. Место в истории азербайджанской литературы и его вклада в развитие реалистической литературы.


**Ключевые слова:** монография, периодизация, художественние особенности, творчество, реализм, писатель

**MAHAMMADOVA SABINA TEMIRLAN**

## ALI NAZIM'S VIEWS ON THE WORK OF JALIL MAMMADKULIZADEH


### SUMMARY

The article examines the views of the famous Azerbaijani literary critic of the 20-30s of the twentieth century, Ali Nazim, who became a victim of bloody repression, on the work of the outstanding Azerbaijani writer Jalil Mammadkulizade. It is noted that the critic divides the work of Ch. Mammadguluzade into three periods and analyzes the features of each period. The article also emphasizes that the comedy “The Dead” by Ali Nazim J. Mammadguluzadeh and the play “The Book of My Mother” reveal the unique method of the writer - the presence of lyricism and romanticism along with harsh laughter and satire.

It is noted that despite some erroneous conclusions about the writer's work, which was associated with the ideological requirements of that time, Ali Nazim, based on an analysis of the writer's creative path, was able to give a correct assessment of Jalil Mammadkulizadeh's place in the history of Azerbaijani literature and his contribution to the development of realistic literature.

**Keywords:** monograph, periodization, artistic features, creativity, realism, writer

***Rəyçi: prof. Bella Musayeva***